UOT 7

***Könül Əzimova***
***Bakı Xoreoqrafiya Akademiyasının dissertantı***
***AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov 75***
***E-mail:* konul–xfn@mail.ru**

# BƏDURƏ ƏFQANLI YARADICILIĞINDA KİŞİ RƏQS GEYİMLƏRİ

**Xülasə**: Azərbaycan incəsənəti tarixində özünə layiq yeri olan yaradıcılıq növlərindən biri teatr rəssamlığıdır. XX əsrin ortalarında zəngin yaradıcılığı ilə fərqlənən teatr rəssamlarımızdan biri Bədurə Əfqanlı olmuşdur. Bədurə xanımın M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblı, Bakının, Naxçıvanın, Lənkəran şəhərinin ansamblları və digər kollektivlər üçün hazırladığı geyim eskizləri, onun milli folklorumuzu və etnoqrafiyamızı dərindən duyan, onu bədii – estetik qaynağa çevirməyi bacaran sənətkar olduğunu təsdiqləmiş bu sahədə öz möhürünü qoymuşdur. Məqalədə Bədurə Əfqanlı yaradıcılığının rəqs geyimlərindən yalnız bir hissəsi olan, kişi rəqs geyimləri öz əksini tapmışdır.


ŞƏKİL 1

**Açar sözlər:** Bədurə Əfqanlı, rəssam, rəqs, kişi rəqs geyim dəsti, eskiz, ifaçı.

Azərbaycanın ilk qadın teatr rəssamı olan Bədurə xanım Əfqanlının yaradıcılığının bir hissəsini kişi rəqs geyim dəstləri təşkil edir. Bədurə xanımın yaratdığı geyimlər milli xoreoqrafiya mədəniyyətimizin inkişafında öz izini qoymuşdur. Onun eskizini çəkdiyi geyimlərlə ifaçılarımiz bir çox xarici ölkələrdə Azərbaycanı təmsil etmişlər. Olduqca müxtəlif olan Azərbaycan rəqsləri içərisində xalq tərəfindən ən çox sevilən rəqslərdən biri "Yallı"dır.

Bədurə xanımın rəsmini çəkdiyi bu ifaçının əlində yaylıq tutması onun dəstənin başında, öndə getdiyini bildirir. "Yallibaşı"nın (Şəkil 1) əlindəki al qırmızı yaylıq odlar yurdu Azərbaycanın bir simvolikası kimi görünür. Ümumiyyətlə yallı rəqsi dairə boyu ifa edilir, iştirak edən rəqqaslar bir– birlərinin çeçələ barmağındantutur, ya da əllərini biri digərinin çiyninə qoymaqla rəqs edirdilər. Bu rəqsin həm yalnız kişilər və həmçinin kişilər qadınlarla birlikdə variantları mövcuddur (1,9).

Yallının təntənəli rəqs olduğu ifaçının rəqs geyimində özünü göstərir. Geyim dəsti Naxçıvan bölgəsinə uyğundur. Bozumtul – mavi rəngli çuxası üzərindən işlənmə ornamentli bafta öz əksini tapmışdır.



ŞƏKİL 2

Əynində qırmızı rəngli ipəkdən köynək və həmçinin belində qırmızı rəngli qurşağı vardır. Şalvarı qəhvəyi rəngdədir (2,73). Uzunboğaz çəkməsi tund zümrüdü rəngdə təsvir olunmuşdur. Əsər sulu boya və quaşla qarışıq texnikada çəkilmişdir. İfaçının saya fonda təsvir olunması diqqəti tam mərkəzdə, rəqqasda toplamağa imkan verir.

Gövdəsi olduqca düz, başı sola tərəf, baxışları isə aşağı yönlənmişdir. Sol ayağı öndə olamaqla hər iki ayağın pəncə üzərində durduğunu görürük. Sağ qol dirsəkdən azacıq bükülməklə çiyin səviyyəsindən yuxarı qaldırılmışdır və əlində yaylıq yelləyir. Sol qol çiyin səviyyəsindən bir az aşağı yana yönlənmiş, əl açıq, ovuc üzü aşağı olmaqla barmaqar bir – birinə bitişdirirlmişdir. Bədurə Əfqanlı yaradıcılığının digər nümunəsi "Qaytağı" rəgsi üçün çəkilmiş rəqs geyim dəstidir (Şəkil 2). Tünd qırmızı və qara rənglərin üstünlük təşkil etdiyi geyim dəstində arxalıq döşdən aşağı belə qədər düymələnmişdir. Qollarda olan qatlanmalardan arxalığın astarının tünd çəhrayı rəngdə olduğunun şahidi oluruq. Tünd qırmızı məxmərdən olan arxalıq tirmə və zərli lentlərlə bəzədilmişdir. Sinə hisəsində patron qoyulan vəznələr var. Atlasdan tikilmiş boyunluğu olan köynəyinin yaxası düymə və ilgək ilə düymələnmişdir (3,8). Bilək hissəsində sıx olan köynəyin qızılı düymələri, beldəki kəmərin, sinəsindəki və çiyindəki qızılı lentlərlə bəzədilmiş ornamentlər həmahəng birtandemdədir. İfaçının şalvarı boz rəngli uzunboğaz çəkməsinin içərisinə keçirilmişdir. Belində kəmərə keçirilmiş qılınc rəqqasın qamətinə daha da igidlik ruhu verir. Azərbaycanda xüsusi əhəmiyyət verilən baş geyimi olan buxara papaq sağ tərəfə baxan rəqqasın alın hissəsini örtür. Qolları çiyin səviyyəsinə qaldırılmış, sağ qolu yana tam açılmış, sol qolu isə sinəsi səviyyəsində dirsəkdən bükülmüşdür. Hər iki əlinin barmaqları

yumruqlanmışdır. Qamətini tamamilə dik saxlamış



ŞƏKİL 3

qas pəncələri üzərində rəqsə tam hazır vəziyyətdə yanmışdır. İfaçının saya fonda qələmə alınması rəqs neralarını dəqiqliklə seyr etməyə imkan yaradır. durə Əfqanlı fırçasının sehirli rəqs aləminin növbətii rəqs geyimi nümunəsi “Azərbaycan”, “Gənclik” sləri üçün təsvir edilmiş geyim dəstidir (Şəkil 3). yim dəstində qara rəngin üstünlüyü labüddür. xalığının yaxası açıqdır. Mahud, məxmər, işlənmə -ılı rəngli lentlərlə bəzədilmişdir. Köynəyi ağ rənglidir. zılı düymələrlə bəzədilmiş kəmərdən üç qızılı rəngdə i zolağı sallanmışdır ki, onların üzərində də qızılı ənmə olduğu təsvir olunmuşdur. Məxməri şalvarınınyi qara rəngli uzunboğaz çəkməsinin içinə ke ül papağı olan ifaçının başı sol tərəfə yönlənmişdir. Qolları çiyin səviyyəsinə qaldırılmış, sağ qolu dirsəkdən qatlanmış, sol qolu isə dirsəkdən qatlanaraq yuxarı tərəfə yönəlmişdir. Yuxarı yönlənmiş sol əlində ovucu açıq, barmaqlar yuxarıya tərəf yönəlmişdir. Sol ayağı qabaqda olmaqla hər iki ayağı pəncə üzərində durmuşdur. İfaçının qürurlu baxışı sözləri Bəxtiyar Vahabzadənin, musiqisi Emin Sabitoğlunun olan “Azərbaycan” mahnısında olan igidin zəhmini əks etdirir.

Nəfəsimiz Babəklərin,
Sabirlərin od nəfəsi.
Mahnımızda yaşar bizim
Babaların addım səsi,
Azərbaycan, Azərbaycan (4,35).

Azərbaycan igidlərini tərənnüm edən, eskizini Bədurə xanımın verdiyi kişi rəqs geyiminə digər bir misal “İgidlər”, “Cəngi” rəqsləri üçün yaradılmış təsvirlərdir (Şəkil 4). Əli qılınclı və qalxanlı, iti baxışlı igidin zəhmli duruşu Bədurə Əfqanlı yaradıcılığının bəhrəsidir. Bu geyim dəsti “Babək”, “Nəsimi” baletlərində, habelə kinofilmlərdə istifadə olunmuş və müvəffəqiyyətlə tərənnüm olunmuşdur. Geyim dəsti VII əsrə aid edilir. Dəstdə qəhvəyi rəng üstünlük təşkil edir. Belə ki, rəqqasın arxalığında qəhvəyi rəngin acıq və tünd çalarlarından istifadə olunmuşdur. Arxalığı məxmərdəndir və sinə hissəsi qondarma bəzəklidir. Şalvarı tünd qəhvəyi rəngli atlasdandır, bozumtul uzunboğaz çəkməsinin içərisinə salınmışdır. Başında zirehə oxşar, pulcuqlu parça, belində qara kəməri biləklərindəki qara zolaqlarla həmahəngdir. Sağ qolu çiyin səviyyəsində qaldırılmış, əlindəki qılıncı başı üzərində tutulmuşdur. Sol əlində sinə səviyyəsində qalxanını saxlamışdır. İşıq–kölgə hesabına qılıncın və qalxanın materialının dəmirdən və ağır olduğu kimi təsəvvür yaranır. İfaçı sol və sağ ayaqlarında pəncələri üstündə



ŞƏKİL 4

durmuşdur. Saya fonda təsvir olunmuş ifaçı rəqsin adına uyğun olaraq dik gövdəsi, geyim tərzi, döyüşə hazır duruşu ilə igidliyi tərənnüm etmişdir.

Zəngin rəqs geyimləri sırasında Bədurə xanım fırçasının bir nümunəsi də “Zorxana”, “Qoçəli”, “Şəki rəqsi” üçün yaratdığı kişi rəgs geyimləri dəstidir (Şəkil 5). Qədim cəngavər rəqsi sayılan “Zorxana”da güc göstərmək əsas məqsəddir. Bu iki rəqqasın duruşunda Bədurə xanım artıq rəqsin mahiyyətini açmışdır. Qarşıda duran, narıncı atlasdan köynəkli rəqqasın çiyinləri azacıq qalxmış, qolları dirsəkdən bükülüb, əlləri belində, ayaqları çiyni səviyyəsində yanlara qoyulmuşdur. Qəhvəyi çalarlı, məxmərdən, fonda narıncı ornamentli şalvarı dizdən aşağıya doğru sıxılır, dizə qədər isə toxunmuş yaşılı, narıncı və sarı ornamentli yun corabları təsvir olunmuşdur. Belindəki göy rəngli qurşağın sağ tərəfindən qırmızı basma naxışlı sarı yaylıq sallanmışdır. Ayaqlarında qara rəngli, aşılanmış göndən hazırlanmış ayaqqabıları qaytanlarla bağlanmışdır. Başının arxasından alnına bağladığı qırmızı basma naxışlı sarğının bir hissəsi sağ çıyinin üzərinə qədər çatmışdır.



ŞƏKİL 5

Arxada duran ifaçı qəhvəyi – sarı çalarlı buxara papaqdadır. Sağ qolu çiyin səviyyəsindən yuxarıya qatlanmış, əlini peysərinə dirəmiş, müvafiq olaraq papağını alnına endirmişdir. Göy fonlu narıncı ornamentli kurdüdə və sarı köynəkdə, qara qurşağı olan rəqqas həmçının ayayqlarını çiyni səviyyəsində yanlara qoyaraq durmuşdur. Qəhvəyi şalvarı uzunboğaz çəkmələrinin içinə salınmışdır. Belindəki qara qurşağından ağ basma naxışlı qırmızı yaylıq asılmışdır. Saya fonda sulu boya ilə əks olunmuş bu pəhləvan, cəngavər obrazlı kişi rəqs geyimi dəsti Azərbaycanın bütün regionlarına uyğun tərzdə təsvir edilmişdir.Bədurə xanım tərəfindən “Qazağı” rəqsi üçün yaradılmış kişi rəqs geyim dəsti də özəlliyi ilə seçilir (Şəkil 6). Bu geyim dəsti daha çox Gəncə–Qazax regionlarına uyğundur. Hər iki ifaçının qolları çiyin səviyyəsinə qaldırılmış, sol qolları dirsəkdən qatlanmış, əlləri başın arxasında, sağ qolları isə çiyin səviyyəsində qabağa uzadılmış, əlləri tam açıq, barmaqlar bitişik halda yuxarıya doğru yönlənmişdir. Ayaqlar həmçinin ikisində eyni tərzdə olaraq yanlara qoyulmuşdur, sanki rəqsə hazır vəziyyətdə durmuşlar. Qarşıda duran ifaçının tünd qəhvəyi çalarda olan buxara papağı alnının üstünu örtmüşdür. Tünd qırmızı düyməli arxalığı tirmə və zərxara ilə



ŞƏKİL 6



işlənmişdir. Arxalığının qolları düz olub bilək hissəyə do[illegible]ədər düyməli olan arxalığı qırmızı, sarı, narıncı rəngli şaquli zolaqlı və qızılı buta basma

naxışlıdır. Qəhvəyi atlas şalvarı, narıncı, sarı, qəhvəyi ornamentli yun corabı arxalığı ilə tam uyğun rəng ahəngində təsvir olunmuşdur. Düymələrinin rənginə uyğun olaraq belindəki qurşağı da tünd qırmızı atlasdandır. Qısa boğazlı, aşılanmış göndən hazırlanıb qaytanlarla bağlanmış ayaqqabıları qəhvəyi rənglidir. Arxa planda duran rəqqasın geyimi rəng etibarilə fərqlənir. Belə ki, bu ifaçının buxara papağı açıq qəhvəyi və sarı çalarlarda, arxalığı badımcanı rəngli atlasdan, belindəkiqurşağı isə al qırmızı çalarda təsvir olunmuşdur. Şalvarı tünd və açıq boz çalarlardaatlasdan, yun corabları isə boz və qırmızı zolaqlı olan rəqqasın geyimində dəBədurə xanım tam bir vəhdət yaratmışdır.

Bədurə xanım Əfqanlı yaratdığı müəllif əsərlərində rənglərin vəhdətindən xüsusi bacarıqla istifadə edərək, hər bir rəqs geyim dəstinin ifaçıya və rəqsə uyğun əhval – ruhiyyəsini tamaşaçıya incəliklə çatdıra bilmişdir.

Təxəyyül qida verən mənəvi, bir diləkdir
Sənətkar istedadı – yaratmaq, yüksəltməkdir (5, 385).

Bədurə xanım Əfqanlının geyim eskizləri yaratdığı əsərlər, özündən sonrakı rəssamlar üçün bir məktəb olaraq qalır. Onun fırçasının özünəməxsusluğu, geyimlərin əsərin məzmununu təbii surətdə açması rejissorların və dramaturqların onunla həvəslə işləyib yaratmağa üstünlük verməsində böyük rol oynayırdı. Çünki Bədurə Əfqanlı rənglər vasitəsilə tamaşaçıda xoş ovqat yaradırdı. 1974-cü ildə Xalq artisti fəxri adına (6) layiq görülmüş, "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Bədurə Əfqanlı ilk azərbaycanlı qadın teatr rəssamlarından (7,8) biri olaraq, yaradıcılığı gələcək nəsillər üçün zəngin bir irs, bir çox teatr və kinorəssamları üçün örnəkdir.

**Ədəbiyyat:**


1. Qəmər Almaszadə. Azərbaycan xalq rəqsləri. Bakı: Birləşmiş nəşriyyat, 1959, səh.9.
2. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Azərbaycan rəqs geyimi. Bakı: "Oskar" nəşriyyatı, 2010, səh. 73.
3. Azərbaycan milli geyimləri. Prof. P.Ə.Əzizbəyovanın redaksiyası altında. Moskva "İskusstvo" nəşriyyatı, 1972, səh. 8.
4. Mahnılar. Bakı: "İşıq" nəşriyyatı,1976, səh. 35.
5. Mustafa Salahov. Yarat yaşa. Bakı: "Qapp – poliqraf" nəşriyyatı, 2005, səh. 385.
6. http://medeniyyet.az
7. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Azərbaycan rəqs geyimi. Bakı: "Oskar" nəşriyyatı, 2010, səh. 8.

**Кенуль Азимова**

**Танцевальные мужские костюмы в творчестве Бадуры Афганлы**

**Резюме**

Народный артист Бадура Афганлы в своем творчестве большое внимание уделяла разработке новых костюмов. Костюмы, разработанные Бадурой Афганлы для коллектива Песни и танца Азербайджанской Государственной Филармонии имени М.Магомаева, танцевальных ансамблейгорода Баку, Нахичевань, Ленкорань, а также других коллективов, свидетельствуют о ее глубоком знании национального фольклора и этнографии. В статье отражена лишь часть творчества Бадура Афганлы – мужские танцевальные костюмы.

**Ключевые слова**: Бадура Афганлы, художник, танец, танцевальный костюм, эскиз, артист.

**Konul Azimova**

**Dance men clothes in the works of Badura Afganli**

**Summary**

Badura Afganly is a national artist, who pays much attention to the development of new costumes in his work. The suits designed by Badura Afganly for the song and dance collective of the Azerbaijan State Philharmonic named after M. Magomayev, the dance ensembles of Baku city, Nakhichevan, Lenkoran, and other groups, testify to her deep knowledge of national folklore and ethnography. The article reflects a part of the creativity of Badur Afganly – male dance costumes.

**Keywords**: Badura Afganly, artist, dance, dance costume, sketch, artist.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 16.05.2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.05.2018Məqalənin çapa qəbul olunma tarixi: 13.06.2018**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfədoktoru, dosent Mehriban Novruzova**

**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**